*6 oktyabr Beynəlxalq Memarlar Günüdür*

# BAKININ KONSTRUKTİVİZM DÖVRÜ MEMARLIĞI

1920-1930-cu illərdə memarlıq avanqardının meydana çıxmasını XX əsrin mədəni fenomeni hesab etmək olar. Bu fenomenin ideya və bədii istiqaməti Bakı şəhərinin yeni məkanı mühitinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərdi, tikililərin memarlıq dilini və simasını başqalaşdırdı, əvvəllər məlum olmayan bina və tikililər tipinin yaradılmasına imkan verdi, insanlarda həyatın rahatlığı, üslubu və keyfiyyəti ilə bağlı təsəvvürləri dəyişdirdi.

XX əsrin başlanğıcında Bakı şəhəri Moskva, Xarkov, Petroqrad və başqaları ilə birlikdə konstruktivizm memarlığının mərkəzlərindən birinə çevrildi. Şəhərdə adlı-sanlı ustadlar, öz dövrünün ən görkəmli memar və şəhərsalanları yaşayıb yaradırdılar: Leonid, Viktor və Aleksandr Vesnin qardaşları, Aleksey Şusev, Lev İlyin, Vladimir Semyonov, Lev Rudnev, Aleksandr İvanitski, Semyon Pen, Konstantin Sençixin və digərləri.



1920-1930-cu illər memarlığı Bakıda abidələrin əhəmiyyətli bir təbəqəsi ilə təmsil olunub, baxmayaraq ki, ötən az qala yüz ildə bunlardan bir çoxu dağıdılıb və yenidən qurulub.

O vaxtlar inşa edilmiş binaların çoxu əvvəlkitək indi də müasir Bakının simasında mühüm yer tutur və bu dövrdə özünü göstərmiş yaradıcılıq mövqeyi və tendensiyalarının göstəriciləri üçün daha səciyyəvidir.

1930-cu illərin əvvəllərində şəhərin “Qaraşəhər” ərazisi, Suraxanı qəsəbəsi, Bayıl, “Vağzalyanı” adlanan yer və mərkəzi hissə də daxil olmaqla Bakının digər rayonlarında tikilmiş iri ictimai binaların sırasında Vesnin qardaşlarının Mədəniyyət evi, memarlar Sadıq Dadaşov və Mikayıl Useynovun Bayıldakı fabrik-mətbəxi, memar Semyon Penin layihəsi üzrə tikilmiş Çap evi, S.M.Kirov adına Fizioterapiya və Balneologiya İnstitutunun və Dövlət Bankının binası, memar Aleksey Viktoroviç Şusevin “İnturist” mehmanxanası, İ.Nikitinin Sovet ticarəti işçiləri üçün mədəniyyət evi, memarlar Konstantin İvanoviç Sençixin və M.Qusmanın “Dinamo” idman sarayı və s. kimi memarlıq abidələri indinin özündə də görkəmli yer tutmaqdadır.

Bakının əsas magistrallarında yerləşən bu binalar onun memarlıq simasının formalaşmasında mühüm rol oynayırdılar. Onları birləşdirən cəhətlər məkan həllinin məntiqi, daxili məkanın funksional təşkilinin dəqiqliyi, ərazidən rasional istifadədir. Binaların eksteryeri üçün xas olan isə cüzi ifadəlilik vasitələri ilə əldə edilən lakoniklik, hər hansı xarici bəzəkdən məhrum memarlıq formalarının tektonik həqiqiliyi, Bakı üçün nisbətən yeni olan inşaat material və üsullarının - dəmir-beton, şüşə, standart elementlər və s.-nin cəsarətli tətbiqi idi.

Sovet İttifaqının çox iri proletar mərkəzində - Bakı şəhərində - tikilmiş binaların əksəriyyətinin bədii obrazlılığındakı yenilik özündə sovet döneminin doğurduğu o tikililərin funksional təyinatına cavab vermək, əvvəllər formalaşmış bina tiplərinin köklü şəkildə dəyişmiş istismar şərtlərinə uyğun gəlmək xüsusiyyətini daşıyırdı. Sahənin özəlliklərindən asılı olaraq məkan kompozisiyalarının simmetrik, ya da asimmetrik xüsusi dinamikliyi buradan qaynaqlanır. Daxili planlamanın azadlığı, hamar beton və şüşə müstəvilərin bolluğu, işıq boşluqlarının oynaq formaları, birinci mərtəbənin dayaq sütunları da öz başlanğıcını buradan götürür. Bütün bunlar mədəni inqilabın vəzifələrini həll etmək üçün meydana çıxmış müasir cərəyanlara ümumi uyğunluğa özünəməxsus şəkildə cavab vermək səyindən də söz açmağa imkan verir.

Azərbaycandakı və xüsusən də Bakıdakı şəhərsalma və memarlıq işləri bu dövr sovet memarlığının daha maraqlı və parlaq layihələri sırasına daxil idi. 1920-ci illərin sonlarında Bakıda konstruktivizm üçün unikal olan şəhərsalma layihəsi reallaşdırılmışdı - Məmmədyarov adına qəsəbə layihələndirilmişdi.

Konstruktivizmə uyğunluq Bakıda onun yerli növünün - “Bakı konstruktivizmi”nin yaranmasına səbəb oldu. Ümumi, sovet konstruktivizmi üçün səciyyəvi olan xüsusiyyətləri ilə birlikdə “Bakı konstruktivizmi” özünün xarakterik özəlliklərinə malikdir, onu fərqləndirən həcmlərin məxsusi klassikası, Bakının memarlıq-məkan mühiti və onun təbii-iqlim şəraiti ilə miqyasca uyğun gəlməsidir. Bundan başqa, dəmir-betonun inşaatda kütləvi şəkildə istifadəsi xeyli məhdud idi. 1920-ci illərin sonları və 1930-cu illərin əvvəllərindəki konstruktivizm dövründə Bakıda tikilmiş binaların, demək olar ki, hamısı yerli “guşə” daşından ərsəyə gətirilir və sonradan üzərinə beton fakturasını xatırladan mala çəkilirdi ki, bu da ona xüsusi cazibə bəxş edirdi.

Uzun müddət Bakının planlanması üzərində çalışmış sovet memarı və şəhərsalanı Lev Aleksandroviç İlyin konstruktivizm fəndlərinin Bakının memarlığı ilə yaxınlığını bu cür qeyd etmişdir: “Kütlələrin kubşəkilli olması və formaların düzxətliyi sayəsində Bakı peyzajında o, tarixi avropayaqədərki formalarla daha az ziddiyyət təşkil edir”. Təsadüfi deyil ki, Lev İlyin məhz “avropayaqədərki formalarla”, yəni Abşeronun və Bakının plastik vasitələrin tətbiqində xəsis olan, eyni materialdan ərsəyə gətirilmiş xalq yaşayış məskənləri ilə oxşarlığı sezmişdi.

Bakıda konstruktivizm, bu üslubun ustadlarının layihə qrafikasını fərqləndirən və SSRİ-nin soyuq paytaxtlarında çətin təcəssüm olunan şıqlığı yenidən özünə qaytardı. Burada, Bakıda hər şey mümkün idi: açıq terraslar da, başdan-başa şüşələmə də, damlarda bağlar da.

Klubların, mədəniyyət evlərinin, fabrik-mətbəxlərin, məktəb-internatların binaları şəhərin mərkəzdən uzaq fəhlə rayonlarında mədəniyyət ocaqları formalaşdırırdı. Obrazının sadəliyi və demokratikliyi bunların təyinatına uyğun gəlirdi.

Təəssüf ki, bu gün Bakının ictimai binalarından bəziləri tikildiyi vaxtdan bəri əhəmiyyətli dəyişikliklərə uğramışdır, bu da sözsüz ki, müasir zamanda onların qavranılmasında mənfi şəkildə əks olunur. Amma onların əksəriyyəti bütün bu illər ərzində fasiləsiz olaraq xidmət göstərmişdir. Onlar şəhərin mühitinə üzvi şəkildə daxil olaraq onun ayrılmaz hissəsinə çevrilmişlər.

Sovet və o cümlədən də Bakı konstruktiv memarlığı tarixinin maraqlı aspektlərindən biri odur ki, uzun müddət ərzində ona XX əsr memarlıq tarixinin hansısa sətiraltı qeydi kimi yanaşmışlar. Onun dünya memarlığının inkişafına nəzərəçarpan töhfə verdiyi memarlıq tarixçiləri tərəfindən etiraf edilmirdi. Xoşbəxtlikdən bu gün vəziyyət dəyişir və son onilliklərdə belə bir fikir yaranaraq möhkəmlənib ki, bu memarlıq öz dövrünün çox vacib təzahürü olmuşdur.



Sovet və xarici memarların nailiyyətlərini müqayisə etdikdə aydın olur ki, Moskva, Peterburq, Bakı, Xarkov, Sverdlovskda və başqa şəhərlərdə yaşayıb yaradan 1920-1930-cu illər konstruktivçilərinin ideyaları bir neçə onillik ötdükdən sonra öz əksini XX əsrin aparıcı memarlarının layihələrində tapmışdır.

Hazırda Bakıdakı konstruktivizm dövrü memarlığı - ölkənin milli sərvəti və bizim qürur yerimizdir. Biz onu gələcək nəsillər üçün qoruyub saxlamağa borcluyuq.

**Elçin ƏLİYEV,**
**sənətşünaslıq doktoru,**
**Azərbaycan Memarlar İttifaqının Məsul katibi.**